# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V SİNİFLƏRİNİN AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN TARİXİ ŞƏXSİYYƏTLƏRİN NÜMUNƏSİNDƏ TƏRBİYƏ EDİLMƏSİ

**Leyla Kərimova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: L-karimova @mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* D. Musayev,
*ped.ü.fəls.dok.* T. İsayeva

***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, Azərbaycan tarixi, tarixi şəxsiyyətlər, tərbiyə edilməsi ,didaktik imkanlar, metodik yolları, nümunəvi vətəndaş*

***Ключевые слова:*** *общеобразовательные школы, история Азербайджана, исторические деятели, воспитываемые, дидактические возможности, методические пути, примерный гражданин*

***Key words:*** *General educational schools, the history of Azerbaijan, historical personalities, upbringing, didactical facilities, methodical ways, model citizen*

Şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi şəxsiyyətyönümlü kurikulumun əsas məqsədlərindən biridir.

Fəlsəfi ədəbiyyatda şəxsiyyət belə səciyyələndirilir:... "Şəxsiyyət- tarixən konkret fəaliyyət növləri və ictimai münasibətlər prosesində formalaşan sosial keyfiyyətlər aspektində götürülmüş insan fərdi. "Fərdi şəxsiyyəti onun sosial keyfiyyəti təşkil edir" (1 , 506).

Apardığımız müşahidələrdən aydın olur ki, hər bir tarix dərsi vəhdət təşkil edən üç məqsədə yönəlmişdir: 1) bilik vermək, 2) tərbiyə etmək, 3) inkişaf etdirmək. Deməli ,dərsə qoyulan ümumi tələblər didaktik, tərbiyəvi, inkişafetdirici tələblərdə konkretləşir. Didaktik (öyrədici) tələblər aşağıdakılardan ibarətdir: hər dərs üçün dəqiq öyrədici vəzifələrin müəyyən edilməsi, dərsin informasiya dolğunluğunun səmərələşdirilməsi, məzmunun optimallaşdırılması, idrak fəaliyyətində yeni-yeni texnologiyaların tətbiqi, hər bir dərs quruluşuna səmərəli yanaşma, iş formalarının səmərəliliyinin təmin edilməsi və s.

Tarixçi-metodistlərdə şagirdlərin mənəvi tərbiyəvi məsələlərini işıqlandırıblar. Pedaqogika üzrə elmlər doktoru, professor M.Əmirov yazır: "Şagirdlərin tarixi şəxsiyyətlərin kitabda problemin ümumi məsələləri, şagird şəxsiyyətinin formalaşdırılmasının psixoloji istiqamətləri, eləcə də təlim prosesində şagird şəxsiyyətinin formalaşdırılmasının psixoloji əsaslarına aydınlıq gətirilib. Nümunəsində tərbiyə edilməsi mənəvi tərbiyənin tərkib hissəsidir.... Mənəvi tərbiyə dedikdə tərbiyə olunanların mənəvi şüuruna, mənəvi hiss və duyğularına, mənəvi davranışına sistemli, məqsədyönlü, mütəşəkkil təsir göstərməklə onlarda zəruri keyfiyyətlərin, vətəndaşlıq yetkinliyinin, fəal həyat mövqeyinin formalaşdırılması üzrə müəllimin fəaliyyəti başa düşülür" (2, 590).

Daha sonra müəllif mənəvi tərbiyənin komponentlərini müəyyənləşdirmişdir. Bunlar aşağıdakılardır:

1) milli mənlik şüuru, 2) mənlik şüurudur, 3) əxlaq tərbiyəsidir, 4) vətənpərvərlik tərbiyəsi, 5) hərbi vətənpərvərlik tərbiyəsi, 6) estetik tərbiyə, 7) əmək tərbiyəsi, 8) ideya-siyasi tərbiyə, 9) fiziki-tərbiyə, 10) hüquq tərbiyəsi.

Problemlə bağlı ədəbiyyatın araşdırılmasından aydın oldu ki, şəxsiyyətin formalaşdırılması, eləcə də tarixi şəxsiyyətlərin nümunəsi əsasında təhsil alanların tərbiyə edilməsi məsələləri psixoloqların diqqətindən də yan keçməmişdir. Tanınmış Azərbaycan psixoloqu R. Əliyevin "Şəxsiyyət və onun formalaşdırılmasının etno psixoloji əsasları" (3, 3-5) adlı kitabı xüsusi əhəmiyyətə malikdir.

Müxtəlif dövrlərdə və ictimai formasiyalarda, quruluşlarda şəxsiyyətin formalaşdırılması həmin quruluşun məqsədinə, ideologiyasına, iqtisadi-siyasi istiqamətinə, onun tələblərinə uyğun şəkildə aparılmışdır. Bununla yanaşı, bütün dövrlərdə mütərəqqi fikirli adamları, şairləri, filosof və alimləri xeyirxah, vətənpərvər, mərifət və elm sahibi olan insanlar, ləyaqətli şəxsiyyətlərin yetişdirilməsi düşündürmüşdür.

Araşdırmalar göstərir ki, müxtəlif ictimai-tarixi şəraiti öyrənən əksər tədqiqatçılar konkret tarixi şəraitdə yaşayan insanların dünyagörüşü, şəxsiyyəti və mənəviyyatını tədqiq edərkən həmin dövrün insanlarının psixologiyasının öyrənilməsini vacib şərt kimi irəli sürmüşlər. Belə yanaşmanın səmərəliliyi bir də ondadır ki, hər bir konkret dövr həyat tərzi, mənəvi dəyərləri baxımından bənzərsiz, təkrar olunmazdır. Bütün bunlar isə hər bir insana özünün təsirini göstərir, ictimai-tarixi şəraitə uyğun şəxsiyyətlər formalaşdırır.

Tədqiqatlar göstərir ki, qədim dövrün insanlarının daxili dünyası, xarakteri, maraqları, tələbatı orta əsrlərin və müasir dövrün adamlarından fərqli olmuşdur. Biz bu fərqləri heç də bütləşdirmək fikrində deyilik. O fikri qəbul edirik ki, adət-ənənə, tarixi və mədəni nailiyyətlər nəsildən-nəslə keçərək eyni millətə, xalqa, coğrafi məkana məxsus insanlarda əsrlər boyu davam edən oxşar xarakterli, dünyagörüşlü, uyğun psixoloji tipli şəxsiyyətlər də formalaşdırır. Çox da uzaq olmayan bir neçə il öncə tarixi prosesin, şəxsiyyətin formalaşması birtərəfli, sinfi mübarizə konsepsiyası, marksist metodologiyası baxımından izah olunurdu.

Tədqiq etdiyimiz min illərin müəyyən dövrlərində Azərbaycanın ictimai-tarixi, sosial-iqtisadi, mədəni həyatında baş verən bir sıra yüksəlişlərin öyrəndiyimiz şəxsiyyətlərin yaradıcılığına təsiri olmuşdur. Eyni zamanda, həmin dövrün ictimai-siyasi, mədəni həyatı, insanların dünyagörüşü, mənəviyyatı tələbatı və sairə bu mütəfəkkirlərin əsərlərində öz əksini tapmışdır. Onlar özlərindən əvvəl yaşamış mütəfəkkirlərin yaradıcılığına istinad etmiş, ondan bəhrələnmiş, ona münasibət bildirmişlər. Bu isə nəsillər, dövrlər arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirmək, keçmişimizi daha dərindən dərk etmək imkanı verir.

Əsərlərinə nəzər saldığımız bu mütəfəkkirlər qədim Hindistan, Çin, Misir alim və mütəfəkkirlərinin elmi-fəlsəfi əsərlərinə istinad etmişlər. Onlar hansı əsrdə, dövrdə yaşamalarından asılı olmayaraq biri-birinin fikirlərini davam, inkişaf etdirmişlər.

Tarix təlimində şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsi ilə tərbiyə edilməsi problemi çox böyük aktuallıq kəsb etsə də həmin problem bu vaxta qədər öyrənilməyib. Tarixi şəxsiyyətlərin çoxsaylı müsbət xüsusiyyətlərindən müsbət xüsusiyyətlərindən pedaqoji ustalıqla istifadə edilməsi həm təlimin, həm də tərbiyənin keyfiyyətini yüksəldir. Məsələn ,nümunə deyək ki, islamın ikinci böyük şəxsiyyəti, Məhəmməd Peyğəmbərin əmisi oğlu və kürəkəni, Əbubəkr, Ömər və Osmanın xəlifəliyindən sonra 656-cı ildə islam taxtına çıxmış həzrət Əli uşaq yaşlarından gələcək peyğəmbərlə oturub-durmuş, peyğəmbər vəfat edənə qədər ondan bir addım aralanmamışdır.

Əgər əvvəlki üç xəlifənin adları tarixdə yalnız xəlifə kimi qalmışsa, həzrət Əli həm də dünya qəhrəmanlıq, ədəbiyyat və fəlsəfə tarixinə düşmüşdür. Həzrət Əli İslamın mühafizəçisi və carçısı, dərin təfəkkür, sağlam düşüncə sahibi, yüksək mənəvi keyfiyyətlər daşıyıcısı olmuşdur.

Həyatın hər üzünü görmüş arif və müdrik bir şəxsiyyət həyat müəllimi olan həzrət Əlinin nəsihət və tövsiyələrinin bu gün də misli yoxdur.

İnsanlar öz ata-analarından yox, zamanələrinə oxşayırlar.

- Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqdır.
- Əsil-nəcabətin ölçüsü əxlaqdır.
- Tərbiyə ağacı yumşaq olanın övlad və təbəələri tərbiyəsiz olar.
- Dilini nəyə öyrətsən onu da sənə qaytaracaq.
- Əqli çox olanın sözü az olar.
- Ən böyük dövlət-ağıl, ən böyük yoxsulluq-nadanlıqdır, ən böyük irs tərbiyə, ən böyük köməkçi vaxtında verilən məsləhətdir.
- Bir şəxs ki, öz şərəfini əldən versə, atasının şərəfi ona kömək etməz.

Göründüyü kimi, həzrət Əli insanı özünü dərkə, saflaşmağa dəvət edir. Mühit və tərbiyənin rolunu yüksək qiymətləndirir. O göstərir ki, insan rəzil işlərdən uzaq olmalı, insaf və ədaləti əldən verməməlidir. Həzrət Əli insanda ağlı yüksək qiymətləndirmiş, onu ən böyük gözəllik hesab etmişdir.

V sinfin Azərbaycan tarixi dərsliyində şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsinə istiqamətləndirilmiş aşağıdakı mövzulardır:

1. Qan içən Kiri kim məğlub etdi
2. Cavanşir
3. Babək
4. Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu

5. Ağqoyunlu dövlətinin hökmdarı
6. Şairlər sultanı
7. Şərqin son fatehi
8. Böyük Azərbaycan xeyriyyəçisi
9. Səttarxan
10. ”Bir kərə yüksələn bayraq...”
11. Şərqdə ilk operanı kim yazıb
12. Müstəqil Azərbaycanın qurucusu.

V sinfin Azərbaycan tarixi dərslərində şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsini reallaşdırmaq məqsədi ilə “Müstəqil Azərbaycanın qurucusu” mövzusunun tədrisi nümunəsinə diqqət yetirək:

1. Dərsin təlim məqsədi-şagirdlərə ümummilli liderimiz Heydər Əliyevin mənalı həyat və fəaliyyəti haqqındakı məlumatları şagirdlər üçün hazırlanmış iş vərəqlərində şərh etmək

2. Dərsin tərbiyəvi məqsədi: Müəllim Heydər Əliyev xalqını, dövlətini, Vətənini sevən cəsur, mərd, dövlətçiliyimizi qorumaq üçün bütün səy və bacarığını əsirgəməyən tarixi şəxsiyyət kimi səciyyələndirməkdə şagirdlərini ulu öndərin nümunəsində tərbiyə edir.

3. Dərsin inkişafetdirici məqsədi: Heydər Əliyev haqqında (mənbələrə əsasən) beşincilər təqdimat hazırlayırlar.

Müəllim motivasiya yaratmaq məqsədi ilə aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1) ”Hansı keyfiyyətlərə və bacarıqlara malik olan insanlara lider demək olar?” sualına cavab olaraq öz rəylərini və fikirlərini bildirirlər.

2) Ümummilli lider Heydər Əliyevin tarixi rolu nədən ibarətdir?

3) Şagirdlərin təfəkkürü lazımi istiqamətə yönəldilir.

Tədqiqat müəllim seçimindən asılı olaraq böyük və kiçik qrup formasında aparılır. Müzakirə və BİBÖ üsulu vasitəsilə şagirdlərin bütünlüklə fəaliyyətə cəlb olunmasına, Heydər Əliyev şəxsiyyəti haqqında keçmiş və əldə ediləcək yeni biliklər arasında əlaqə yaradılmasına, beləliklə, mövzunun daha yaxşı qavranılmasına nail olmaq mümkündür. Yeni faktlar və biliklər əldə etmək üçün şagirdlərə tədqiqat prosesini cədvəldəki tapşırıqlar əsasında davam etdirmək təklif edilir. Sonra müəllim aşağıdakı məzmunda iş vərəqini şagirdlərin qarşısında olan kompüterlərə yönəldir:

Azərbaycanın böyük oğlu Heydər Əliyev həyat və fəaliyyətini müstəqil Azərbaycanın yaradılmasına və inkişafına həsr etmişdir. Ulu öndərimiz hələ sovet Azərbaycanın rəhbəri olduğu vaxtda da vətənimizin iqtisadiyyatının dirçəlməsinə çalışmışdı. Əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına, elm və mədəniyyətin inkişaf etdirilməsinə böyük diqqət ayırmışdı.

Heydər Əliyev dövlət xadimi olmaqla yanaşı, böyük strateq idi. Tarixi hadisələrin axarını hələ bir neçə on il əvvəl müəyyən edə bilirdi. Ona görə də məhz ötən əsrin 70-ci illərindən başlayaraq o gələcək müstəqil Azərbaycanın təməlini qoyurdu.

Ulu öndərimiz hələ o illərdən vətənimizin gələcəyini düşünərək milli siyasət yeridirdi. Azərbaycan dilinin, milli adət-ənənələrin qorunması, milli kadrların hazırlanması hər zaman onun diqqət mərkəzində idi. Yüksək vəzifələrdə azərbaycanlıların çalışmasını istəyən Heydər Əliyev bizim gənclərin xaricdə ,Sovet İttifaqının ən böyük təhsil ocaqlarında təhsil almasını təmin edirdi. Ulu öndərimizi narahat edən məsələlərdən biri azərbaycanlı hərbi kadrların çox az olması idi. Çünki hələ çar Rusiyası dövründə azərbaycanlıların azadlıq eşqinin məhv edilməsi üçün gənclər hərbi xidmətə cəlb edilmir, onlara mübarizə əzmini unutdurmağa çalışırdılar. Bu siyasət sovet hökuməti dövründə da davam edirdi. Ulu öndərimiz bunu dərk edirdi və gələcək faciələri duyaraq məqsədli tədbirlər gördü. Heydər Əliyevin səyi nəticəsində bu müstəmləkəçi siyasətə zərbə vuruldu. O, general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. Eyni zamanda azərbaycanlı gənclərin Sovet İttifaqının digər hərbi məktəblərində oxuması üçün tədbirlər gördü. Tarixçi alim Yaqub Mahmudov öz xatirələrində yazır:

Müəllim bu tapşırığı yerinə yetirməzdən qabaq şagirdlərin düşüncələrini dərsin müvafiq hissələrinə yönəldir. Tədqiqat prosesi nəticəsində şagirdlərin əldə etdikləri yeni faktlar və məlumatlar qarşılıqlı dinləmə yolu ilə mübadilə edilir. Mövzunun aktuallığı və səmərəliliyi qrup işinə imkan verir. Bütün şagirdlərin iştirakını təmin etmək üçün təqdimatı keçirənlərə sual vermək və əlavələr etmək vacibdir.

Tarix uca bir dağa bənzəyir. Ondan uzaqlaşdıqca onun əzəməti və qüdrəti daha aydın görünür. Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti də belədir. Hər gün, hər ötən illər onun qüdrətinin nə qədər böyük olduğunu sübut edir. Təsadüfi deyildir ki, Heydər Əliyev “bütün

dövrlərin böyük siyasi xadimi" kimi dəyərləndirilmişdir.

Ulu öndərin gəncliyində bir arzusu olmuşdu. Onun arzusu memar olmaq idi. Lakin, o peşəkar memar ola bilmədi. Siyasi memar oldu. Onun "şah əsəri" isə müstəqil Azərbaycan oldu. Qüdrətli Azərbaycan.

Müəllim şagirdlərin tarixi şəxsiyyət - Heydər Əliyevin həyat və fəaliyyəti nümunəsində tərbiyə etmək məqsədi ilə ümummilli liderin tarixi şəxsiyyət kimi keyfiyyətləri haqqında dərin bilik verdikdən sonra onlara aşağıdakı məzmunda müstəqil iş təklif edir:

1. Cədvəl qurum və cədvəldə ümummilli lider haqqındakı sualları cavablandırın.
2. Heydər Əliyevi dövlət xadimi kimi səciyyələndirin.
3. Heydər Əliyevi böyük strateq kimi səciyyələndirin.
4. Xalqının və dövlətinin xilaskarı kimi dəyərləndirin.
5. Liderlik xüsusiyyətlərini göstərin.
6. Ulu öndərin gənclər üçün mənalı həyat yolunu şərh edin.

Müəllim şagirdlərin biliyini qiymətləndirir və ev tapşırığı verərək dərsi yekunlaşdırır.

**Problemin elmi yeniliyi.** Ümumtəhsil məktəblərinin V sinfində şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsinin nümunəvi dərs modelinin təqdim olunmasıdır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalənin məzmunundan və onun nəticələrindən məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Problemlə bağlı alınan elmi nəticə.** Məqalədə şagirdlərin tarix dərslərində tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsinin metodik sisteminin verilməsidir.

## ƏDƏBİYYAT

1. Fəlsəfi ensiklopedik lüğəti. Müəllif kollektivi. Bakı: Azərbaycan Ensiklopediyası. Nəşriyyat Poliqrafiya Birliyi, 1997.
2. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal / interaktiv təlimi metodikası: Dərs vəsaiti. Bakı, 2014.
3. Əliyev R. Şəxsiyyət və onun formalaşdırılmasının etnopsixoloji əsasları. Bakı, 2000 .
4. Mahmudlu Y. Cabbarov H., Hüseynova L. Azərbaycan tarixi - ata yurdu. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Təhsil, 2012.

**Л. Керимова**

## ВОСПИТАНИЕ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ V КЛАССА НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА НА ПРИМЕРЕ ИСТОРИЧЕСКИХ ЛИЧНОСТЕЙ.

### *РЕЗЮМЕ*

В статье была обоснована актуальность темы, и выражено отношение к развитию проблемы. В учебнике Истории Азербайджана для V класса определены возможности тем, посвященных жизни и деятельности исторических личностей. В преподавании предмета «Независимый Азербайджанский основатель» была дана модель урока, отражающая воспитание учеников в жизни и деятельности исторических личностей.

**L. Karimova**

## EDUCATION OF PUPILS OF SECONDARY SCHOOLS OF THE V CLASS AT THE LESSONS OF THE HISTORY OF AZERBAIJAN ON THE EXAMPLE OF HISTORICAL PERSONALITIES.

### *SUMMARY*

The relevance of the topic was substantiated in the article, and the attitude to the development of the problem was expressed. In the textbook of the History of Azerbaijan for the V class, the possibilities of topics devoted to the life and work of historical personalities are defined. In teaching the subject "Independent Azerbaijan Founder", a lesson model was given that reflects the education of students in the life and work of historical personalities.

**Redaksiyaya daxil olub:** 19.02.2018